*5 İyun Meliorasiya və Su Təsərrüfatı işçilərinin peşə bayramı günüdür*

# Kənd təsərrüfatının və aqrar sahənin inkişafında su təsərrüfatı və meliorasiya obyektləri layihələrinin rolu



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı işçilərinin builki peşə bayramı ölkəmiz üçün olduqca əlamətdar olan bir ərəfəyə təsadüf edir. Belə ki, ötən ay respublikamızda və hətta onun hüdudlarından kənarda da Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik, müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin isə anadan olmasının 95 illik yubileyləri təntənə ilə qeyd olunmuşdur. Bu il ölkəmiz üçün bir də ona görə əlamətdar olmuşdur ki, aprel ayında respublikamızda keçirilən növbədənkənar prezident seçkilərində möhtərəm Prezidentimiz İlham Əliyev seçicilərin böyük əksəriyyətinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı olan cənab İlham Əliyevin fəaliyyətinin bütün dövrlərində Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində olduqca mühüm addımlar atılmışdır. Onun respublikamıza rəhbərliyi dövründə iqtisadiyyatımızın inkişaf səviyyəsi dəfələrlə artmış, respublikamızda əsasən şaxələndirilmiş, müasir sosial-iqtisadi infrastruktur yaradılmış və qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir. Regionun lider dövlətinə çevrilən respublikamızın beynəlxalq aləmdə nüfuzu da əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Respublikamızda davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məsələsi ölkəmizin rəhbərliyinin bütün dövrlərdə bir hədəf kimi qarşıya qoyduğu və böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir. Davamlı sosial-iqtisadi inkişaf dedikdə ilk növbədə, ölkə iqtisadiyyatının hərtərəfli, kompleks şəkildə inkişafı nəzərdə tutulur. Burada neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması, beləliklə də, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı şəkildə inkişaf etdirilməsi əsas hədəf kimi götürülür.

Bu baxımdan, hörmətli Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikamızda hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən Dövlət proqramları olduqca mühüm əhəmiyyət kəsb edir ki, bunlara da misal olaraq “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair”, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və sairə bu kimi Dövlət proqramlarını göstərə bilərik.

Ölkəmizin iqtisadi baxımdan inkişafına, əhalinin sosial rifahının və yaşayış səviyyəsinin yüksəlişinə rəvac verən bu Dövlət proqramlarının icrası və tam həyata keçirilməsi üçün vacib olan amillərdən biri də ölkəmizdə kənd təsərrüfatının və aqrar sahənin müasir tələblər səviyyəsində inkişaf etdirilməsidir. Bu gün cəmiyyətimizin və eləcə də ölkəmizin müasir inkişaf mərhələsində kənd təsərrüfatının və aqrar sahənin olduqca əhəmiyyətli rola malik olması danılmaz bir faktdır. Kənd təsərrüfatının və aqrar sahənin inkişafı həm dövlətimizin, həm də xalqımızın sosial rifahının yaxşılaşması üçün olduqca vacib və mühüm amillərdən biridir. Elə məhz bu səbəbdən də ölkə rəhbərliyi tərəfindən həmişə respublikamızda kənd təsərrüfatının və aqrar sahənin hərtərəfli, dinamik inkişafına xüsusi diqqət və qayğı göstərilir.

Kənd təsərrüfatının və aqrar sahənin inkişafında meliorasiya və su təsərrüfatı sahəsi xüsusi rol oynadığını nəzərə alsaq, bu sahənin dinamik, perspektiv inkişafının birbaşa meliorasiya və su təsərrüfatı sahəsində həyata keçirilən layihələrin səmərəliliyindən və eləcə də bu layihələrin hazırlanma keyfiyyətindən asılı olduğunu deyə bilərik. Məhz elə buna görə də ölkə rəhbərliyi tərəfindən də hər zaman meliorasiya və su təsərrüfatı sahəsinə diqqət və qayğı göstərilir ki, bu diqqət və qayğı sayəsində də respublikamızda mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, bu sahəyə ayrılan investisiya vəsaitinin həcmi 20 dəfə, istismar xərclərinə ayrılan vəsait 6 dəfəyə qədər artmışdır. Bununla bərabər ölkə rəhbərliyi meliorasiya və su təsərrüfatı sahəsində çalışan mütəxəssislər qarşısında olduqca məsuliyyətli vəzifələr qoyur. Belə ki, bu il yanvar ayının 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda geniş nitq söyləyən hörmətli Prezidentimiz İlham Əliyev öz çıxışında ölkə melioratorları qarşısında konkret tələblər qoyaraq demişdir: ***“Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. Beləliklə, biz 2017-2018-ci illərdə 200 mindən çox hektara suyun təminatını təşkil edəcəyik. Bir neçə önəmli kanal layihələri icra ediləcəkdir. Dövlət İnvestisiya Proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Dövlət İnvestisiya Proqramında bu məsələ ilə bağlı olan bütün layihələr ilin sonuna qədər icra edilməlidir.”***

Möhtərəm Prezidentimizin ölkə melioratorları qarşısında qoyduğu bu tələblərə cavab olaraq son illər ölkəmizdə meliorasiya və su təsərrüfatı sahəsində sosial-iqtisadi baxımdan olduqca əhəmiyyətli və uğurlu layihələr icra olunur. Hər zaman ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutan ölkə melioratorları bütün bacarıq və imkanlarını səfərbər edərək respublikamızda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsi ilə bağlı üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Təsadüfi deyil ki, cənab Prezident pambıqçılığın inkişafı məsələlərinə dair Bərdə rayonunda keçirilən respublika müşavirəsində ölkə melioratorların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: ***“... Son illərdə meliorasiya sahəsində böyük layihələr icra edilmişdir. On minlərlə hektar torpaqda meliorativ tədbirlər görülmüşdür. O cümlədən, Bərdə rayonunda və digər rayonlarda bu sahəyə də çox böyük vəsait ayrılmışdır və digər kompleks tədbirlər görülmüşdür. Pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılmışdır.”***

Meliorasiya və su təsərrüfatı sahəsində çalışanlara verilən bu yüksək qiymətdən “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin nəzdində fəaliyyət göstərən və bu il 85 illik yubileyini qeyd edən “Azdövsutəslayihə” İnstitutunun kollektivinə də pay düşür. Belə ki, respublikamız üçün mühüm əhəmiyyət kəsb edən müxtəlif meliorasiya və irriqasiya obyeklərinin əksəriyyətinin layihə-smeta sənədləri məhz institutumuzun əməkdaşları tərəfindən yüksək keyfiyyətlə işlənib hazırlanır.

Son bir ildə institutumuzda “Yuxarı Mil Kanalının tikintisi”, 19205 ha sahəni suvarma suyu ilə təmin edəcək “Neftçala magistral kanalının nasos stansiyası ilə tikintisi”, “Şəmkir Maşın kanalının II növbə tikintisi”, 1738 ha sahəni əhatə edəcək “Şabran rayonunun inzibati ərazisində yaradılan Şabran Aqroparkda infrastrukturun qurulması məqsədilə meliorasiya tədbirləri”, 4695 ha sahəni əhatə edəcək “Goranboy və Samux rayonları ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi”, uzunluğu 54 km olan “Araz çayının yeni qolu vasitəsilə yeni suvarılan torpaqların istifadəyə verilməsi” obyektinin işçi layihəsi, 1553 ha sahəni əhatə edən “Qax rayonunda yaradılan Aqroparkın ərazisində suvarma suyunun çatdırılması”, “Əhalisi 375 min nəfərə yaxın olan 36 şəhər və rayonun 136 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması”, 680 ha əkin sahəsini suvarma suyu ilə təmin edəcək “Cəbrayıl rayon Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi”, “Ağsu rayonu Cəgəli kənd əhalisinin içməli su ilə təmin edilməsi məqsədi ilə Ağsu rayonu ərazisində yerləşən Cavanşir su anbarında zəruri tikinti-bərpa işlərinin aparılması” və sairə bu kimi meliorasiya və su təsərrüfatı obyektinin layihə-smeta sənədləri işlənib hazırlanmışdır.

Hazırda isə institutumuzun əməkdaşları tərəfindən “Şəmkir maşın kanalının tikintisi (II növbə)”, “Əhalisi 592736 nəfərə yaxın olan 38 şəhər və rayonun 249 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezian quyusunun layihələndirilməsi və qazılması”, 3300 ha sahəni əhatə edəcək “Xəzər, Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinin layihə-smeta sənədlərinin hazırlanması və işlərə başlanması”, 5660 ha sahəni suvarma suyu ilə təmin edəcək “Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi”, 12000 ha ərazini əhatə edəcək “Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi”, 52638 ha sahəni suvarma suyu ilə təmin edəcək “Araz çayının yeni qolu vasitəsilə yeni suvarılan torpaqların istifadəyə verilməsi” (paylayıcı kanalların layihələndirilməsi), “Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri” və digər bu kimi obyektlərin layihə-smeta sənədləri institutumuzun mütəxəssisləri tərəfindən uğurla işlənib hazırlanır.

“Azdövsutəslayihə” İnstitutunun kollektivi hər zaman möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri, respublikanın əməkdar mühəndisi Əhməd Əhmədzadənin diqqət və qayğısını öz üzərində hiss edir, bu diqqət və qayğıya görə institutumuzun kollektivi adından öz dərin minnətdarlığımızı bildiririk. Əmin edirik ki, “Azdövsutəslayihə” İnstitutunun kollektivi dövlətimizin ona göstərdiyi etimadı ləyaqətlə doğruldacaq və müstəqil Azərbaycanımızın xoşbəxt, firavan gələcəyi naminə bundan sonra da öz fəaliyyətini uğurla, yüksək əzmkarlıqla davam etdirəcəkdir.

**Elbrus PAŞAYEV,**
**“Azdövsutəslayihə” İnstitutunun direktoru, Azərbaycan Respublikasının əməkdar mühəndisi, texnika elmləri üzrə fəlsəfə doktoru.**